# MÜSTƏQİLLİK GÜNÜ QEYD OLUNDU



## GƏNCƏ

Universitetin yaraşıqlı akt zalında Gəncə Dövlət Universiteti Tələbə Şurasının təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanın Dövlət Müstəqilliyi günü münasibətilə geniş tədbir keçirilmişdir. Dövlət himninin səslənməsindən sonra Xarici dillər fakültəsinin tələbəsi Aytac Səlimovanın böyük qürur hissi ilə söylədiyi "Ayağa dur, Azərbaycan" şeiri tədbiri bir daha canlandırdı.

Tədbiri giriş sözü ilə açan, Gəncə Dövlət Universitetinin prorektoru dosent Asif Cavadov iştirakçıları salamlayaraq bu müstəqilliyin keşməkeş yol keçdiyini xatırlatdı. Dövlət müstəqilliyimizin etibarlı əsasları məhz Heydər Əliyevin bilavasitə rəhbərliyi altında, onun qətiyyətli siyasəti və dövlətçilik təcrübəsi tərəfindən yaradılmış və möhkəmləndirilmişdir. Daxili sabitliyin bərqərar olması, dövlətçilik ənənələrinin yaradılması, demokratik-hüquqi islahatların həyata keçirilməsi, xalqın rifah halının yaxşılaşması istiqamətlərində görülən tədbirlər, respublikamızın müstəqilliyinin dönməzliyinin, əbədiliyinin etibarlı əsaslara malik olmasının bariz nümunəsidir. Bu gün çox sevindirici haldır ki, ümummilli liderimizin ideyaları yaşayır, onun siyasi kursu dövlət başçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yeni məzmun və keyfiyyətcə uğurla davam etdirilir.

İqtisadiyyat və idarəetmə fakültəsinin tələbələrindən Aytac Qurbanova, Nurlan Rüstəmli, biologiya-kimya fakültəsinin tələbəsi Hüseyn Bayramov, riyaziyyat və informatika fakültəsinin tələbəsi Səadət Məmmədova çıxış edərək, müstəqilliyimizin bərpasının 24-cü ilini qeyd etdiyimiz Azərbaycan Respublikası tarixən qısa zaman kəsiyində əsrə bərabər bir inkişaf yolu keçməsinin, sosial-iqtisadi, mənəvi-psixoloji və ideoloji cəhətdən xeyli güclənməsinin məhz tarixi şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətinin nəticəsi olduğunu diqqətə çatdırdı.

Tədbirin sonunda müstəqilliyimizdən sonra dövlətimizin innovativ inkişafını əks etdirən videoçarx nümayiş etdirildi.

Tələbə Şurasının sədri Əfsanə Mövlayeva tələbələrə göstərilən sonsuz diqqət və qayğıya görə universitet rəhbərliyinə tələbələr adından dərin təşəkkürünü bildirdi.

* * *

## SAMUX

Dövlət Müstəqilliyimizin 24-cü ili bütün regionlarda olduğu kimi, Samuxda da böyük təntənə ilə qeyd edilmişdir. Rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının nümayəndələrinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət sahələrinin rəhbərləri və geniş ictimaiyyət nümayəndələri möhtəşəm Heydər Əliyev mərkəzinə gələrək Azərbaycanın xilaskarı, memarı və qurucusu, əbədiyaşar Heydər Əliyevin əzəmətli abidəsi önünə tər qərənfillər qoyaraq, bir daha öz hörmət və ehtiramlarını bildirdilər. Sonra rayon icra hakimiyyətinin yaraşıqlı, geniş akt zalında Dövlət Himninin səslənməsindən sonra yığıncaq öz işinə başladı.

**Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev** bu bayram münasibətilə iştirakçıları təbrik edərək qeyd etdi ki, Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin qayıdışından sonra əldə etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. Məhz milli liderin zəngin siyasi təcrübəsi, yüksək



idarəçilik bacarığı, vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Bir sözlə, əgər müstəqillik, Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə, Azərbaycanın müstəqilliyinin əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin danılmaz faktıdır.

Sonra YAP Samux Rayon Təşkilatının sədri Gündüz Bayramov, rayon təhsil şöbəsinin metodisti Nərgiz Bədəlova və başqaları bu əlamətdar günün xalqımızın taleyində ən həlledici rol oynadığını, bütöv bir xalqın yaddaşında əbədi həkk olunduğunu diqqətə çatdırdılar.

İrəvan Azərbaycan Dram Teatrının təşkil etdiyi bədii kompozisiyalar iştirakçılar tərəfindən böyük maraqla qarşılandı.

**Zabit XƏLİLOV,**
**"Respublika".**